# Ekologiya və Təbii Sərvətlər Nazirliyində kollegiya iclası keçirilib

**Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2023-cü ilin yekunlarına və 2024-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, iclasda nazirliyin struktur bölmələrinin və tabeli qurumlarının rəhbərləri, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini iştirak edib.

Kollegiya iclasında 2024-cü ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ətraf mühitin qorunmasına verilmiş mühüm töhfə olduğu bildirilib və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının növbəti ildə ölkəmizdə keçirilməsi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub.

Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar keçirilən tədbirlər və ölkə ərazisində yaşıllıq sahələrinin artırılması, eyni zamanda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı görülmüş işlər və gündəlikdə duran digər məsələlər barədə məlumat verilib, ilin yekununa dair hesabatlar dinlənilib.

Azərbaycan.- 2023.- 27 dekabr (№ 284).- S.17.